# Mədəni irsin arxivləşdirilməsində Amerika təcrübəsindən faydalanılacaq

Mədəniyyət naziri Anar Kərimov ABŞ-ın Smitsonian İnstitutunda muzeylər və mədəniyyət katibinin müşaviri Kevin Qover və Folklor və Mədəni İrs Mərkəzinin direktoru vəzifəsini icra edən Riçard Kurinlə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ikitərəfli uğurlu əlaqələrin qurulması, araşdırmalar və sərgilərin təşkili, eksponatların restavrasiyası mövzusunda danışıqlar aparılıb. Söhbət zamanı nazirə məlumat verilib ki, Smitsonian İnstitutu hər il bir-birindən zəngin folklor festivalları təşkil edir. Eləcə də Azərbaycanın növbəti festivallara qatılması təklif olunub.

Həmçinin institutda müxtəlif sahələr üzrə təcrübə proqramlarının keçirilməsindən, bu proqramlara ölkəmizdən olan mütəxəssislərin də qoşulmaq imkanlarından bəhs olunub.

Görüş zamanı sıx əməkdaşlığa təkan verəcək anlaşma memorandumu da imzalanacağı ilə bağlı razılığa gəlinib. Qeyd olunub ki, bu memorandum gələcək çoxşaxəli əməkdaşlıq üçün olduqca vacibdir.

Sonda tərəflər bir-birinə tarixi və mədəni baxımdan böyük önəm daşıyan kitablar hədiyyə ediblər.

Mədəniyyət naziri həmçinin ABŞ-ın Arxiv İdarəsinin rəhbəri vəzifəsini icra edən Debra Voll ilə də görüşüb.

Görüş zamanı bir sıra əhəmiyyətli mövzular müzakirə olunub. Həmçinin azərbaycanlı mütəxəssislərin yaxın gələcəkdə treninq proqramlarına qoşulması barədə razılıq əldə olunub. Mədəni irsin arxivləşdirilməsində, eləcə də arxiv sənədlərinin rəqəmsallaşdırılmasında Amerika təcrübəsindən faydalanmağın önəmindən bəhs olunub.

Anar Kərimovun rəsmi görüşləri davam edir. Nazir Dövlət Departamentində ABŞ Dövlət katibinin təhsil və mədəniyyət məsələləri üzrə köməkçisi Li Satterfildlə görüşüb. Görüş zamanı ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub. Anar Kərimov "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal təşəbbüsü barədə danışıb. Həmçinin ölkəmizin mədəni irsinin qorunması yolunda aparılan işlər barədə məlumat verib.

Tərəflər bir sıra məsələlər haqda da fikir mübadiləsi aparıblar.

Azərbaycan.- 2022.- 5 may.- S.7.